F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# İNSAN HÜQUQLARI VƏ SOSİAL ƏDALƏT



Veblioqrafiya

Bakı – 2025

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025**

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**

**Əliyeva Lamiyə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, (+99412) 597-09-86**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

## Giriş

İnsan hüquqları və azadlıqlarının təmin edilməsi müasir dünyada demokratik inkişafın ayrılmaz hissəsi olmaqla yanaşı, vətəndaş cəmiyyətinin əsas meyarlarından biri hesab edilir. Bu hüquqlar ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ümumi dəyərlər üzərində qurulur və qanunla qorunur.

Bütün sivil dövlətlərdə insan hüquqları prinsipləri ümumi qayğı və məsuliyyətin əsas tərkib hissəsi olaraq qəbul edilir və bu prinsiplər müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında önəmli yer tutur. Azərbaycanda insan hüquqları və azadlıqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqları və azadlıqları, ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalar və normativ hüquqi aktlar bu sahədə etibarlı hüquqi baza formalaşdırmışdır. Bu hüquqların real həyatda təmin olunması məqsədilə ölkəmizdə mühüm addımlar atılır. Belə addımlardan biri də 18 iyun 2007-ci il tarixində dövlət başçısı İlham Əliyevin Azərbaycanda “İnsan Hüquqları Günü”nün qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamdır. Bu qərar ilk dəfə Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixində Azərbaycan Respublikasında "İnsan Hüquqları Müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etməsindən qaynaqlanır. Heydər Əliyev insan hüquqları məsələsini öz fəaliyyətinin əsas prinsiplərindən biri kimi qəbul etmişdir. Onun rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycanın ilk milli Konstitusiyasının üçdə ikisi məhz insan hüquq və azadlıqlarına həsr edilib.

Respublikamızda insan hüquqlarının real həyatda təmin edilməsi məqsədilə mühüm institusional addımlar atılır. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu, Konstitusiya Məhkəməsi, hüquq-mühafizə orqanları və digər aidiyyəti qurumlar insan haqlarının qorunması və pozulmuş hüquqların bərpası istiqamətində mühüm vəzifələr yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən vacib təşəbbüslərdən biri də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) tərəfindən hər il elan edilən “İnsan Hüquqları Aylığı” kampaniyasıdır. Bu aylıq kampaniya insan hüquqları sahəsində maarifləndirmə işinin gücləndirilməsini, hüquq və azadlıqların cəmiyyətdə təbliğini, vətəndaşların hüquqi biliklərinin artırılmasını və bu sahədə mövcud çağırışların müzakirəsini həyata keçirir. Aksiya müddətində dövlət və qeyri-hökumət təşkilatları, təhsil və mədəniyyət müəssisələri, eləcə də kitabxanalar tərəfindən müxtəlif tədbirlər təşkil edilir. Məqsəd insan hüquqları sahəsində ictimai məlumatlılığı artırmaq, hüquqi düşüncəni inkişaf etdirmək, xüsusilə uşaqların və gənclərin hüquqi biliklərini gücləndirməkdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası da bu təşəbbüsə qoşularaq insan hüquqları sahəsində maarifləndirmə işinə öz töhfəsini verməkdədir. Kitabxana fondunda mövcud olan insan hüquqları, bərabərlik, tolerantlıq, hüquqi məsuliyyət və hüquqi maarifləndirmə mövzularını əhatə edən materialların tam mətnli siyahısını oxuculara təqdim edir.

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) "İnsan Hüquqları Aylığı"nın elan olunması ilə bağlı müraciəti**

İnsan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl və kompleks islahatlar həyata keçirilmiş, bu istiqamətdə fundamental hüquqi baza formalaşdırılmışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il 18 iyun tarixində təsdiq olunmuş ilk "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" bu sahədə strateji fəaliyyətin əsasını qoymuşdur. Bu mühüm sənədə əsaslanaraq, Prezident cənab İlham Əliyevin 2007-ci il tarixli Sərəncamı ilə 18 iyun ölkəmizdə rəsmi olaraq İnsan Hüquqları Günü kimi təsis edilmişdir və həmin tarix hər il geniş şəkildə qeyd olunur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən bu əlamətdar gün ərəfəsində ənənəvi olaraq 18 may – 18 iyun tarixləri "İnsan Hüquqları Aylığı" elan olunur. Aylıq çərçivəsində hüquq və azadlıqların təbliği, ictimaiyyətin hüquqi biliklərinin artırılması, insan hüquqları sahəsində mövcud çağırışların müzakirəsi və milli səviyyədə həyata keçirilmiş fəaliyyətlərin ictimailəşdirilməsi nəzərdə tutulur. Xüsusi ilə qeyd edilməlidir ki, bu ilki kampaniyada qanunun aliliyi, hüquq mədəniyyəti, hüquqi məsuliyyət və inklüziv cəmiyyət prinsiplərinin təbliği əsas mövzulardan biri olmalıdır.

Bu baxımdan, dövlət orqanları, bələdiyyələr, təhsil və mədəniyyət müəssisələri, tibb və sosial xidmət qurumları, penitensiar müəssisələr, qeyri-hökumət təşkilatları, media nümayəndələri və digər aidiyyəti qurumlar "İnsan Hüquqları Aylığı" çərçivəsində keçiriləcək tədbirlərə fəal şəkildə qoşulmağa, müxtəlif formatlı maarifləndirmə tədbirləri, müzakirələr, təlimlər və məlumatlandırıcı kampaniyalar keçirməyə dəvət olunurlar. Xüsusilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması nəzərə alınaraq, tədbirlərdə milli konstitusiya dəyərlərinin və qanunun aliliyinin təbliğinə xüsusi önəm verilməsi tövsiyə olunur.

Aylıq çərçivəsində həyata keçirilən tədbirlər və maarifləndirmə fəaliyyətləri barədə məlumatların #İnsanHüquqlarıAylığı və #HumanRightsMonth həştəqləri ilə sosial media platformalarında paylaşılması xahiş olunur.

Eyni zamanda, əhalinin bütün qruplarının, xüsusən sosial cəhətdən həssas, o cümlədən şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaqların, ahılların, qaçqınların, keçmiş məcburi köçkünlərin, miqrantların hüquqlarının təmini məsələlərinə xüsusi həssaslıq göstərilməsi, hüquqi maarifləndirici vəsaitlərin hazırlanması, nəşri və əhali arasında yayılması, keçirilən tədbirlərin, çəkilən sosial çarxların audiovizual, çap, onlayn media, həmçinin teleradio kanalları, sosial şəbəkə hesabları vasitəsilə işıqlandırılması işində fəallıq nümayiş etdiriləcəyinə inanır və əvvəlcədən təşəkkürümü bildirirəm.

**Hörmətlə,**

**Səbinə Əliyeva**

**Azərbaycan Respublikasının**

**İnsan Hüquqları üzrə Müvəkkili**

**(Ombudsman)**

## Kitablarda




Avropa İnsan Hüquqları Konvensiyası. - Bakı. - 2006. - 76 s.

Bu kitab insan hüquqları və azadlıqlarının müdafiəsi sahəsindəki əsas prinsipləri və hüquqi mexanizmləri təqdim edir. Oxuculara, beynəlxalq və yerli qanunvericilik çərçivəsində insan hüquqlarının qorunması üçün tətbiq olunan müxtəlif üsul və yanaşmalar barədə ətraflı məlumat verir.




İnsan Hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı. - 2003. - 35 s.

Kitabda İnsan Hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası arasında paralellər aparılmışdır. Bəyannamənin müvafiq maddələri ilə Konstitusiyanın uyğun maddələri paralel şəkildə verilmişdir.




İnsan Hüquqları üzrə Milli Fəaliyyət Planlarına dair Məlumat Kitabçası. - Bakı : Kaspian - N, 2002. - 100 s.

Məlumat kitabçası oxuculara milli fəaliyyət planlarının hazırlanması ilə bağlı detallı bir təqdimat və yönləndirmə təklif edir.




Levin, L. İnsan hüquqları : Suallar və cavablar. - Bakı : Azərnəşr, 1999. - 144 s.

Bu kitab insan hüquqları sahəsindəki əsas prinsipləri və tətbiq üsullarını anlamağa kömək edir, eyni zamanda BMT-nin insan hüquqları təhsili sahəsindəki inkişaf hədəflərinə uyğun yanaşmalar təqdim edir.




Məhkumların hüquqi vəziyyəti. - Bakı. - 2003. - 58 s.

Kitabda Azərbaycan Respublikasının Konstitusiyasına və Cəzaların İcrası Məcəlləsinə istinadən məhkumların hüquqi vəziyyətinə kifayət qədər ətraflı aydınlıq gətirilmişdir. Kitab cəza çəkən məhkumların, cəzaçəkmə müəssisələrinin işçi heyətinin, hüquqşünasların, insan hüquq və azadlıqları problemləri ilə məşğul olan qeyri-hökümət təşkilatlarının, habelə təhsil müəssisələrinin istifadəsi üçün tövsiyə olunur.

Mustafayeva, A. İnsan hüquqlarının müdafiəsi bioetikanın tərkib hissəsi kimi : monoqrafiya. - Bakı : Apostrof, 2012. - 132 s.




Monoqrafiya hazırda xüsusi aktuallıq kəsb edən bioetika və insan hüquqları probleminin tədqiqinə həsr edilir. Nəşrdə müasir beynəlxalq bioetika konvensiyalarının xüsusiyyətləri ətraflı şərh olunur. Müəllif tərəfindən yaşamaq hüququ, ölüm cəzası, evtanaziya, sağlamlığın qorunması, psixi sağlamlıq hüququ, uşaqların tibbi hüquqları və yevgenika kimi məsələlər araşdırılır. Monoqrafiya Azərbaycan Respublikasında ilk dəfə olaraq müasir bioetikanın tətbiqinin beynəlxalq konstitusiya və cinayət-hüquqi problemlərinin kompleks monoqrafik tədqiqini əhatə edir.




Uşaq hüquqları Konvensiyası. - Bakı : Qismət, 2013. - 64 s.

Kitab BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına əsaslanaraq, uşaqların hüquqlarının qorunması sahəsində beynəlxalq və yerli təcrübələri birləşdirir. Oxuculara uşaqların hüquqları barədə ətraflı məlumat və tətbiqi nümunələr verilir.

**Dövri mətbuatda**


**Ağaşahqızı, Y**. Azərbaycan insan hüquq və azadlıqlarının, sabitliyin, qanunların aliliyinin qorunduğu demokratik-hüquqi ölkədir // İki sahil. - 2019. - 13 dekabr. - № 231. - S. 27.

**Ağazadə, S.** Uşaqlarımızın hüquqlarını necə qoruyuruq? // Səs. - 2024. - 31 may. - № 96. - S. 7.

**Arifli, A.** İnsan hüquq və azadlıqlarının müdafiəsində Ulu öndərin imzası // Xalq qəzeti. - 2024. - 8 may. - № 94. - S. 7.

Azərbaycan insan hüquqlarının qorunması sahəsində mühüm uğurlara imza atmışdır // Xalq qəzeti. - 2019. - 11 dekabr. - № 275. - S. 9.

**Bayramova, Y.** Bütöv, toxunulmaz, sərbəst : Ümumdünya İnsan Hüquqları Günüdür // Yeni Azərbaycan. - 2024. - 10 dekabr. - № 227. - S. 8.

**Bayramova, Z.** 18 İyun Azərbaycanda İnsan Hüquqları Günüdür // Səs. - 2024. - 15 iyun. - № 107. - S. 4.

**Bədəlov, Ə.** İnsan hüquq və azadlıqlarının Azərbaycan nümunəsi // Xalq qəzeti. - 2019. - 24 avqust. - № 184. - S. 1-2.

**Cəfəroğlu Ə.** İnsan hüquqları kontekstində qaçqın və məcburi köçkünlər problemi // Palitra. - 2017. - 21 noyabr. - № 212. - S. 13.

**Ələddinqızı, N.** 18 İyun Azərbaycanda İnsan Hüquqları Günüdür // Səs. - 2022. - 18 iyun. - № 107. - S. 7.

**Ələsgərov, A.** İnsanların hüquq və azadlıqları ali dəyər kimi qiymətləndirilir: 12 Noyabr Konstitusiya Günüdür // Respublika. - 2022. - 11 noyabr. - № 245. - S. 15.

**Əliyev, Z.** Ulu öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqları elminin inkişafı: 18 İyun - İnsan Hüquqları Günüdür // Respublika. - 2023. - 15 iyun. - № 126. - S. 12.

**Əliyeva, S.** İnsan hüquqları və media: Azərbaycan təcrübəsi müsbət nümunə kimi // Xalq qəzeti. - 2020. - 23 iyul. - № 143. - S. 7.

**Əliyeva, S.** Qloballaşan dünyada insan hüquqlarının müdafiəsi və təbliği beynəlxalq hüquqi fenomen kimi // Respublika. - 2022. - 17 iyun. - № 126. - S. 14.

**Əziz, A.** Mütərəqqi dəyərləri əks etdirən Ana Qanun // Kaspi. - 2017. - 12 dekabr. - № 211. - S. 11.

**Hacalıyev, E.** Azərbaycanda insan hüquq və azadlıqları yüksək səviyyədə təmin edilib: 18 İyun İnsan Hüquqları Günüdür // Azərbaycan. - 2017. - 18 iyun. - № 130. - S. 6.

**Qabilqızı, G.** 18 iyun İnsan Hüquqları Günüdür // Yeni Azərbaycan. - 2022. - 18 iyun. - № 107. - S. 5.

**Qarayeva, S.** İnklüziv, əngəlli insanların təhsil və məşğulluq hüquqları // 525-ci qəzet. - 2024. - 18 sentyabr. - № 169. - S. 12.

**Qurbanqızı, Z.** Ölkəmiz insan hüquqlarının qorunması sahəsində də uğurlar qazanıb: 10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür // Respublika. - 2022. - 10 dekabr. - № 270. - S. 6.

**Məmmədova, M.** İnsan və vətəndaş hüquqlarının qorunması Ümumilli Liderin adı ilə bağlıdır : Heydər Əliyev - 100 // Səs. - 2023. - 14 fevral. - № 27. - S. 8-9.

**Nəcəfzadə, İ.** İnsan hüquq və azadlıqlarının təsbiti, təmini və müdafiəsi konstitusiyaçılığın əsasıdır // Səs . - 2017. - 22 noyabr. - № 213. - S.13.

**Ömərov, V.** Avropada müharibə və insan hüquqları // Səs. - 2020. - 27 fevral. - S. 15.

**Ömərov, V.** Azərbaycan demokratiya, insan hüquqları və əsas azadlıqlar ilə bağlı öhdəliyinə sadiqdir // Səs. - 2020. - 22 aprel. - № 66. - S. 15.

**Ömərov, V.** Azərbaycan Xalq Cümhuriyyəti hökuməti insan hüquq və azadlıqların müdafisəinin təminatçısı kimi // Səs. - 2018. - 2 may. - № 84. - 15.

**Ömərov, V.** Azərbaycan Respublikası qanunvericiliyində insan hüquqlarının pozulmasının qarşısının alınmasına yönəlmiş ümumi prinsiplər // Səs. - 2020. - 7 fevral. - № 24. - S. 13.

**Ömərov, V.** Azərbaycanda humanizm siyasəti və insan hüquqları // Səs. - 2020. - 9 aprel. - № 57. - S. 15.

**Ömərov, V.** Azərbaycanda insan hüquqları // Səs. - 2020. - 19 fevral. - № 33. - S. 15.

**Ömərov, V.** Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsində məhkəmələrin rolu // Səs. - 2017. - 20 iyun. - № 108. - S. 15.

**Ömərov, V.** Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində qazanılmış uğurlar // Səs. - 2018. - 6 iyun. - № 107. - S. 15.

**Ömərov, V.** Azərbaycan seçkilərin təkmilləşdirilməsi və insan hüquqları // Səs. - 2018. - 28 mart. - № 58. - S. 15.

**Ömərov, V.** Demokratiya, insan hüquqları və azadlıq // Səs. - 2018. - 15 mart. - № 49. - S. 15.

**Ömərov, V.** Demokratiya şəraitində insan hüquq və azadlıqları // Səs. - 2018. - 14 mart. - № 48. - S. 13.

**Ömərov, V.** Fərd-cəmiyyət münasibətlərində insanın azadlıq hüququnun yeri və rolu // Səs. - 2018. - 25 yanvar. - № 15. - S. 15.

**Ömərov, V.** Humanitar insan hüquqları // Səs. - 2020. - 26 fevral. - № 38. - S. 13.

**Ömərov, V.** İnsan haqları – insanların malik olmağa haqqı olduğu əsas hüquqlar və azadlıqlar // Səs. - 2020. - 25 fevral. - S. 13.

**Ömərov, V.** İnsan haqları və demokratik cəmiyyət quruculuğu // Səs. - 2020. - 4 fevral. - S. 13.

**Ömərov, V.** İnsan hüquq və azadlıqlarının təminatı // Səs. - 2017. - 19 yanvar. - № 10. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları ideyasının reallaşmasının aspektləri // Səs. - 2018. - 3 mart. - № 42. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları haqqında nəzəriyyələr // Səs. - 2020. - 11 mart. - № 47. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları sistemində hüquq-mühafizə orqanları rəhbərlərinin vəzifələri // Səs. - 2018. - 17 fevral. - № 32. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları təsisatı // Səs. - 2018. - 9 fevral. - № 26. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları və azadlıqlarının müdafiənin beynəlxalq aspektləri // Səs. - 2018. -7 mart. - № 44. - S. 15.

**Ömərov, V.** İnsan hüquqları və liderlik // Səs. - 2017. - 21 aprel. - № 69. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarına müxtəlif yanaşmalar // Səs. - 2018. - 24 yanvar. - № 14. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının mahiyyəti və vətəndaşların hüquqi statusu // Səs. - 2018. - 10 yanvar. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının kulturoloji və genderoloji aspektləri // Səs. - 2017. - 3 iyun. - № 98. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının müdafiəsi dövlətin ən ali vəzifəsidir // Səs. - 2019. - 2 avqust. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının müdafiəsində QHT-lərin rolu // Səs. - 2017. - 8 iyun. - № 101. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının müdafiəsinin milli qanunvericiliyə transformasiyası // Səs. - 2020. - 25 fevral. - № 37. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: İnsan alveri // Səs. - 2020. - 7 fevral. - № 24. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: Təcavüz // Səs. - 2020. - 5 fevral. - № 22. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: İstismar // Səs. - 2020. - 13 fevral. - № 29. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: ev köləliyi və qurbanların pozulması // Səs. - 2020. - 21 fevral. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: Genosid // Səs. - 2020. - 6 fevral. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının pozulması halları: İnsanlıq əleyhinə cinayətlər // Səs. - 2020. - 6 fevral. - S. 13.

**Ömərov V.** İnsan hüquqlarının universal mahiyyəti və onun müdafiəsinə nəzarət formaları // Səs. - 2017. - 23 may. - № 90. - S. 15.

**Ömərov, V.** İnsan hüquqlarının universallığı // Səs. - 2018. - 20 fevral. - № 33. - S. 15.

**Ömərov, V.** Köləlik və kölə vəziyyətinə salma // Səs. - 2020. - 13 fevral. - № 29. - S. 13.

**Ömərov, V.** İnsanın azadlıq hüququ // Səs. - 2018. - 18 yanvar. - № 10. - S. 15.

**Ömərov, V.** İnsanın daxili azadlıq hüququ // Səs. - 2018. - 20 yanvar. - № 12. - S. 13.

**Ömərov, V.** Liberal-demokratik sistemlərdə insan hüquqları // Səs. - 2018. - 16 fevral. - № 31. - S. 15.

**Ömərov, V.** İnsanların təbii hüququ // Səs. - 2018. - 21 aprel. - № 77. - S. 15.

**Ömərov, V.** Müharibə və insan hüquqları // Səs. - 2020. - 26 fevral. - № 38. - S. 15.

**Ömərov, V.** Müasir Azərbaycanda insan hüquqları tolerantlıq və multikulruralizm fəlsəfəsi kontekstində // Səs. - 2017. - № 97. - 14 iyun. - S. 15.

**Ömərov, V.** Qərbdə tənhalığın insan hüquqlarına mənfi təsiri // Səs. - 2017. - 2 iyun. - №97. - S. 15.

**Ömərov, V.** Müasir Azərbaycanda insan hüquqları tolerantlıq və multikulturalizm fəlsəfi kontekstində // Səs. - 2017. - 14 iyun. - № 105. - S. 15.

**Rasimoğlu, C.** Azərbaycanda insan hüquq və azadlıqlarının müdafisəi qanunvericiliyə əsaslanır // Səs. – 2017. – 18 fevral. - № 31. - S.13.

**Süleymanova, E.** Azərbaycanda insan hüquqları: Milli və beynəlxalq əməkdaşlıq // Respublika. - 2017. - 10 dekabr. - № 272. - S. 4.

**Vahidoğlu, O.** Ölkəmizdə vətəndaşların hüquq və azadlıqları ən yüksək səviyyədə qorunur // İki sahil. - 2017. - 8 dekabr. - № 225. - S. 14.

**Videoqalereya**

İnsan hüquqları nədir? / Əkinçi

İnsan hüquqları nədir? / Young Lawyers Network

İnsan hüquqları – Şəxsi toxunulmazlıq hüququ / Baku Research Group

İnsan Haqları / Bilirdinizmi

18 iyun – Milli insan hüquqları günüdür / Azərbaycan respublikası Əqli mülkiyyət Agentliyi

İnsan hüquqlarının inkişafı / Bakı İnsan Hüquqları Klubu

İnternet, dövlət və insan hüquqları / Səyyad Yusifli / Əkinçi

İnsan hüquqları və seçkilər / Murad Rüstəmbəyli / Əkinçi

Kibertəhlükəsizlik: nədir və niyə İnsan hüquqları məsələsidir? / Zümrüd Əlizadə

18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günüdür / Təhsil TV